## OLQA ZƏNCİRCİ




Türkiyənin Artvin Coruh Universitetindən dəvət olunan müəllimi Olqa Zəncirci 14-28 sentyabr tarixlərində Orhun proqramı çərçivəsində Bakı Slavyan Universitetində rus dili fənnini tədris edib. Dərslər Xarici dil müəllimliyi fakültəsinin rus dili ixtisası üzrə təhsil alan tələbələr üçün keçirilib.

Tədris müddətində tələbələrə rus dilinin morfologiyası, sintaksisi, leksikologiyası və digər bölmələri haqqında geniş məlumat verilib. Nəticədə tələbələr bu sahələr üzrə dərin biliklərə yiyələniblər.